tərtib olunmuş əkin dövriyyəsi yaxşı xidmət göstərə bilər, lakin bu yenilik deyildir. Alternativ kənd təsərrüfatında alaq bitkilərinə qarşı torpağın mexaniki işlənməsindən istifadə edir, bəzən onları cücərtilər çıxana qədər sahələrdə yandırırlar. Göbələk xəstəliklərinin yayılmasının qarşısını səpinlərin seyrəkləşdirilməsi və yaxşı qurudulması yolu ilə almaq mümkündür. **Ziyanverici həşəratlarla mübarizə üçün isə bioloji vasitələrdən, məsələn, mənənə minicilərindən istifadə edilir.** Burada başlıcası odur ki, mikroorqanizmlərin, yaxud xeyirli həşəratların genetikası dəyişilməsin. Əkinlərin zədələnməsinin qarşısını almaq mümkün olmadıqda, ekoqaydaların siyahısında göstərilən – tütün nikotini ekstraktı, bitki yağları, lesitin, jelatin kimi vasitələrdən istifadə etməyə icazə verilir.

Əlbəttə, belə üsullarla taxıl sahələrinin məhsuldarlığını hektardan 90 sentnerə çatdırmaq mümkün deyil. Ekoloji təsərrüfatlarda məhsuldarlıq 30-40 sentner arasında tərəddüd edir. Lakin eko mütəxəssislər bunda çatışmamazlıq yox, bir sıra üstünlük görürlər: birincisi, az məhsuldarlıq hesabına məhsulla bazarın çox doldurulmasının qarşısı alınır; ikincisi, əl əməyinin yüksək payı çoxlu miqdarda insanları işlə təmin etməyə imkan verir, yəni işsizlik problemi həll olunur.

**Nəyə görə «eko» bahadır?** Ekoprinsiplər üzrə təsərrüfatçılıq – asan iş deyil. Birincisi, bütün göstərişlərə əməl olunması xeyli əl əməyi sərf olunmasını tələb edir. İkicisi, həm heyvanların, həm də bitkilərin məhsuldarlığı ənənəvi istehsalın göstəricilərindən aşağıdır. **İqtisadi risklər də bura əlavə olunmalıdır, çünki kimyəvi vasitələrdən istifadə etmədikdə bitki və heyvan xəstəliklərinin yayılması ehtimalı olduqca yuxarı olur.** Ekoloji keyfiyyətli son məhsulun o qədər də aşağı olmayan qiyməti belə amillərdən asılı olaraq formalaşır. Artıq Avropa İttifaqı ölkələrində hamı eko-ətin yaxud eko-yerkökünün ənənəvi istehsal məhsuluna nisbətən iki dəfə yüksək qiymətə satılmasını təbii hesab edir.


**Faiq Nadirov,**

*kənd təsərrüfatı elmləri namizədi*



İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

“Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti”

Layihə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

“Kösər” mətbəəsində çap olunmuşdur. Sayı 5000.


# Kimyasız olanların hamısı «eko» deyil (I)



Bakı-2009

Ekolojı kənd təsərrüfatı sadəcə olaraq göydən düşməmişdir. O, cəmiyyətin özünün inkişafının nəticəsidir. Kənddə xoşbəxt həyat və kənd təsərrüfatı barədə romantik ideyalar insanların şüurunda qədim zamanlardan yaşayır. Artıq XX əsrin 20-ci illərində onlar aqrar istehsalın intensivləşdirilməsi və sənayeləşdirilməsi ilə bir sıra nəzəriyyələrin meydana gəlməsinə səbəb oldu. Bununla da prinsipcə eyni olan «eko», yaxud «bio» əsrinin idealist mərhələsinin əsası qoyuldu.

**Ekolojı (sinonimləri – alternativ, biolojı) kənd təsərrüfatı təbii əlaqələrə əsaslanan təsərrüfatçılıqdır, yəni burada, torpaq, bitki və heyvanlardan ibarət vahid bir orqanizm sayılır.** Heyvanlar torpağı gübrələyir, torpaq bitkiləri lazımi qida maddələri ilə, bitkilər isə heyvanların yemlənməsini təmin edir. Belə orqanizmin uzun müddət yaşaması və məhsul verməsi insan təsirinə məruz qalan ekosistemlərdən asılıdır. Odur ki, ekosistemlər olduğu kimi saxlanmalı, qorunmalı, ya da yenidən yaradılmalıdır.

Təsərrüfatçılığa iki alternativ yanaşmanın zəngin ənənələrinə baxmayaraq, Avropa İttifaqı ölkələrində uzun müddət aydın olmamışdı ki, hansı məhsul ekolojı adlandırıla bilər. İstehlakçı xülasələrin və işarələrin cürbəcürlüyündən çaşqın vəziyyətdə qalmışdı. Lakin məsələlərin əksəriyyəti 1991-ci ilin iyununda qəbul olunmuş «Ekolojı əkinçilik barədə Avropa İttifaqının 2092/91 nömrəli qaydaları və kənd təsərrüfatı istehsalının və ərzaq məhsullarının müvafiq adlandırılması» adlı qərarından sonra həll edildi. Qaydalarda ekolojı təmiz bitkiçilik məhsulları istehsalının təşkili üzrə konkret göstərişlər öz əksini tapmışdır. Toxum və digər əkin materialları ekolojı təsərrüfatlarda istehsal olunmalıdı, və onlardan tədarük edilməlidir. Nəticədə bitkilərin mühafizəsi və torpağın münbitliyinin yüksəldilməsinə aid qaydalarda müəyyən edildi. Toxumluq və əkin materialları eko təsərrüfatlardan tədarük edilməlidir.

- **Torpağın münbitliyi hər şeydən əvvəl onun qida maddələri ehtiyatından və mikroorqanizmlərinin fəallığından asılıdır.** Yaşıl gübrələrdən istifadə olunması toraqda üzvi maddələrin miqdarını artırır, dənli-paxlalı bitkilərin yetişdirilməsi onu azotla zənginləşdirir. İnkişaflı kök sisteminə malik olan bitkilər torpağı yumşaldır və qida maddələri elementlərini onun dərin qatlarına çatdırır. Beləliklə, torpağın hərtərəfli və yetərincə qidalandırılması düzgün tərtib olunub həyata keçirilən əkin dövriyyələrindən asılıdır.
- Torpaqda qida maddələri ehtiyyatının yaradılmasından ötrü birinci növbədə ekolojı mənşəli üzvi maddələrdən istifadə olunmalıdır. Lakin bu heçdə onun istənilən miqdarlarda torpağa verilməsinin mümkünlüyü demək deyildir. **Hər hektara təsiredici maddə hesabı ilə 170 kq-dan artıq olmayaraq N!** Əgər bitkilərin qida elementlərinə tələbatı yuxarıda göstərilən tədbirlərlə tam ödənilmirsə onda mineral gübrələrdən ağlabatan miqdarda istifadəyə yol verilir. Lakin onların hamısından yox, yalnız qaydaların siyahısında göstərilənlərdən. **Əksər hallarda buna ehtiyacı müəyyən edən nəzarət orqanlarının təsdiqini alan zaman yol verilir. Qeyd edilməlidir ki, burada təbii mənşəyə malik, tərkibində kimyəvi mikro və makroelementlər olan təbaşir, əhəng, qips, dəmir istehsalında alınan şlaklar və bir sıra digər materiallar nəzərdə tutulur.**
- Xəstəliklərlə və ziyanvericilərlə mübarizə onlara davamlı mədəni bitki sortlarının seçilməsindən başlanır. Əkinlərin alaqlarla sıxışdırılmasına yol verməməkdən ötrü, məsələn, ilk veqetativ mərhələlərdə tez inkişafla xarakterizə olunan taxıl sortları əkmək lazımdır.

Xəstəlik və ziyanvericilərin, yaxud alaqların yayılmasının qarşısını almaqdan ötrü düzgün